Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəsi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərovun 2014-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 107 saylı Qazax seçki dairəsi üzrə Kəmərli bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Dursunov Adigözəl Məmməd oğlunun 01 yanvar 2015-ci il tarixdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 105 saylı müraciəti üzrə

**RƏYİ**

Bakı şəhəri 02 yanvar 2015-ci il

Mən, ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərov 2014-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 105 saylı Qazax seçki dairəsi üzrə Kəmərli bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Dursunov Adigözəl Məmməd oğlunun 01 yanvar 2015-ci il tarixdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 105 saylı müraciət müraciətini araşdıraraq müəyyən etdim:

107 saylı Qazax seçki dairəsi üzrə Kəmərli bələdiyyəsi üzrə qeydə alınmış namizəd Dursunov Adigözəl Məmməd oğlu 01 yanvar 2015-ci il tarixdə Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək, adı çəkilən seçki dairəsinin 32 və 33 saylı məntəqələrində seçki günü Qazax rayon İcra hakimiyyəti başçısının ərazi idarəetmə və yerli özünüidarə şöbəsinin müdiri və Kəmərli kənd İnzibati ərazi dairəsi üzrə nümayəndəsi tərəfindən seçkinin gedişinə müdaxilə edildiyini, səsvermənin nəticələrinin hesablanması zamanı qanun pozuntularına yol verildiyini iddia etmiş və bununla əlaqədar müvafiq tədbirlər görülməsini xahiş etmişdir.

Daxil olmuş müraciət ilkin olaraq nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, Mərkəzi Seçki Komissiyasına daxil olmuş içərisində müraciətin olduğu poçt zərfinin üzərindəki müvafiq ştampda məktubun göndərilmə tarixi "29-12-2014" göstərilmişdir. Bu isə onu göstərir ki, həmin müraciət qanunvericilikdə müəyyən olunmuş müddət ötürülməklə verilmişdir. Bu səbəbdən də müraciət geri göndərilməlidir.

Belə ki, yuxarıda göstərilən Təlimatın 7.1-ci bəndinə əsasən seçki komissiyaları tərəfindən şikayət qeydə alındıqdan və baxılması üçün ekspertə təqdim edildikdən sonra ekspert həmin şikayəti ilkin olaraq nəzərdən keçirir. Bu zaman ekspert şikayətin Seçki Məcəlləsi və bu Təlimatla müəyyən edilmiş qaydaların pozulması ilə daxil olduğunu aşkar etdikdə, bu barədə qrup koordinatorunu məlumatlandırmaqla, şikayətin onu təqdim edən şəxsə geri göndərilməsinə dair rəy verməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112.1-ci maddəsinə və "Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqından Təlimat"ın 4.1.2-ci bəndinə əsasən seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilərlər.

Ona görə də 107 saylı Qazax seçki dairəsinin 32 və 33 saylı məntəqələrində səsvermənin nəticələrinin hesablanması zamanı qanun pozuntularına yol verildiyinə dair həmin dairə üzrə Kəmərli bələdiyyəsinə qeydə alınmış namizəd Dursunov Adigözəl Məmməd oğlunun qeyd edilən şikayəti qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətdə verilmədiyindən, müraciət mahiyyəti üzrə araşdırılmadan geri göndərilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4.1.2-ci, 6-cı və 7-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m:**

1. 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 107 saylı Qazax seçki dairəsindən Kəmərli bələdiyyəsi üzrə qeydə alınmış namizəd Dursunov Adigözəl Məmməd oğlunun Azərbaycan Mərkəzi Seçki Komissiyasına daxil olmuş 01 yanvar 2015-ci il tarixli 105 saylı müraciəti qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə verildiyindən ərizəçiyə geri göndərilsin
2. Rəy qəbul edildiyi andan 18 saat müddətində dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

**Ekspert qrupunun üzvü** **Bəxşeyiş Əsgərov**